# Yeni dövrün reallığı, turizmin inkişafı




**Uzun illər gözlənilən o an gəlib çatdı. Bu ayın 23-dən etibarən həm yerli, həm də xarici vətəndaşlar işğaldan azad olunmuş torpaqlara, daha dəqiq ifadə etsək, Şuşa, Laçın, Ağdam, Füzuli, Xankəndi və Xocalıya səfər edə biləcəklər.**

Bu qərar inzibati məhdudiyyətlərin ləğvi olmaqla yanaşı, Azərbaycanın uzunmüddətli geosiyasi və iqtisadi strategiyasının tərkib hissəsidir. Ən əsası isə bu qərar ilə Qarabağ həm ölkənin digər bölgələri ilə birləşir, həm də ideoloji baxımdan ümummilli yaddaşla tamlıq təşkil edir. İllər öncə xatirələrdə, elmi dərsliklərdə, xəbər başlıqlarında adına rast gəldiyimiz bu torpaqlara indi rahat gediş-gəliş mümkün olacaq, Qarabağ gələcək inkişaf modelinin episentrinə çevriləcək.

**(davamı 8-ci səhifədə)**



# Yeni dövrün reallığı, turizmin inkişafı

(əvvəli 1-ci səhifədə)

"Böyük Qayıdış" Azərbaycan üçün yeni sosial-iqtisadi münasibətlər sisteminin başlanğıcıdır. Bu proqram çərçivəsində həyata keçirilən infrastruktur və məskunlaşma layihələri Qarabağın turizm xəritəsindəki yerini müəyyənləşdirən əsas faktordur. Əgər indiyədək bu bölgələr yalnız hərbi-siyasi aspektdə müzakirə edilirdisə, artıq onlar iqtisadi reallıqların predmetinə çevrilir. Turizm isə bu prosesin funksional dayağıdır. Müasir dövrdə turizm sektorunun dövlət siyasətindəki çəkisinin və strateji rolunun artması fonunda isə bu bölgə həm də böyük potensiala malik turizm məkanı kimi ön plana çıxır. Bunun təməlində isə iki amil dayanır: infrastrukturun tədricən tamamlanması və hüquqi-prosedur baryerlərin yumşaldılması. Azərbaycanın regionları arasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi xarakteristikaları baxımından hazırda dinamik inkişaf edən zonalardır. İşğaldan azad edilən torpaqlarda 3 istiqamət üzrə iqtisadi inkişaf planı reallaşır. Bunlardan birincisi, infrastrukturun qurulmasıdır. Əgər Qarabağın turist qəbul etməyə hazır olub-olmaması sualına cavab axtarsaq, ilk baxmalı olduğumuz sahə məhz elə infrastrukturdur. Bu baxımdan son illərdə bölgədə aparılan bərpa və yenidənqurma miqyasına görə təkcə regionda deyil, Avropada da bənzəri az görülən layihələr sırasındadır. Rəsmi açıqlamalara görə, hazırda 3 min 382 kilometrə yaxın avtomobil və dəmir yolunun, beynəlxalq hava limanlarının və yaşayış məntəqələrinin sıfırdan inşası prosesi gedir. Yaxın iki il ərzində bu ərazilərə dəmir yolu, avtobus və fərdi avtomobil səfərlərinin müntəzəm formaya keçməsi planlaşdırılır. İşğaldan azad edilən torpaqlarda iqtisadi inkişafın digər aspektləri isə yaşayış sahələrinin tikintisi və məskunlaşma, eləcə də iqtisadi dövriyyənin, xüsusən turizm, kənd təsərrüfatı və ticarətin dayanıqlılığıdır. Turizm bu 3 istiqamət üzrə həm xidmət sahəsi kimi çıxış edir, həm də digər sektorları stimullaşdırır. Məsələn, hotellərin tikintisi təkcə turizmi deyil, tikinti sektorunu da hərəkətə gətirir. Regionda turistlərin qəbuluna yönəlmiş kənd təsərrüfatı məhsullarının tədarükü isə yerli əhalinin məşğulluğunu artıracaq. Bu yanaşma postkonflikt regionlarda iqtisadi inkişaf modellərində turizm bazalı strukturlaşma adlanır və Azərbaycan bunu praktikada reallaşdıran azsaylı ölkələrdən biridir. Bəzən düşünülür ki, Qarabağda həm məskunlaşma, həm də turizmi paralel şəkildə inkişaf etdirmək çətindir. Amma "Böyük Qayıdış" proqramının gedişi göstərir ki, bu iki proses bir-birini tamamlayır. İlk növbədə, məskunlaşma turizmin dayanıqlılığına zəmin yaradır. Yerlərdə xidmət infrastrukturu yalnız yerli əhali ilə mümkün olur. Turistlərin qarşılanması, yerləşdirilməsi, istiqamətləndirilməsi və təhlükəsizliyi yalnız mütəşəkkil yerli icmalarla mümkündür. Əks halda, bölgə sadəcə ekskursiya məkanı olaraq qalır, turizm isə bazar forması ala bilmir. Bundan əlavə, turistlərin iştirakı yerli icmalar üçün əlavə gəlir mənbəyi deməkdir. Bu gəlir isə sosial-siyasi sabitliyi möhkəmləndirən faktorlardandır. Beləliklə, turizm həm iqtisadi, həm sosial inteqrasiya aləti rolunu oynayır.

Rəsmi məlumatlara görə, bu ilin ilk yarısında Azərbaycana 1 milyondan çox xarici vətəndaş daxil olub. Gələnlərin 25,8 faizi Rusiyadan, 17,6 faizi Türkiyədən, 9,4 faizi Hindistandan olub. Bu isə o deməkdir ki, Azərbaycanın turizm cəlbediciliyi artıq regional çərçivəni aşır. Bu statistik bazanı Qarabağ istiqamətinə yönləndirmək üçün əsas infrastruktur demək olar ki, hazırdır. İndi məsələ tanıtım, mədəni diplomatiya və xidmət keyfiyyətinin yüksəldilməsi ilə bağlıdır. Bu gün Şuşada bir musiqi festivalı təşkil edilirsə, sabah Zəngilanda ekoloji düşərgələrə maraq artacaq. Bu gün Ağdamda məsciddə ziyarət varsa, sabah Laçında atçılıq turizmi gündəmə gələ bilər. Yəni, bölgə tək məkan olaraq deyil, funksional müxtəliflik baxımından da turizm bazarına rəng qatır. Qarabağ marşrutları artıq formalaşıb. Əvvəllər bu səfərlər ciddi prosedur tələb edirdi, indi isə icazə müddəti iki gündən beş günədək uzadılıb. Bu, planlama baxımından böyük rahatlıqdır. Üstəlik, səfərlərlə paralel olaraq orada məskunlaşma və iqtisadi fəaliyyət də canlanır. Nəzərə almalıyıq ki, Azərbaycan uzun illərdir ki, öz mədəni irsini dünyaya tanıtmaq üçün xarici auditoriyalarda çıxış edir. Qarabağ kimi həssas və strateji regiona turist cəlb etmək də bu baxımdan təkcə iqtisadi məqsədlərlə izah oluna bilməz. Rəsmi qurumların məlumatına görə, yaxın 5 il üçün Qarabağ regionunda kulinariya və etnoqrafik festivalların keçirilməsi, eləcə də mədəniyyət obyektlərinin və sərgi salonlarının açılması üzrə investisiya planlaşdırılır. Əgər Fransa öz Napoleonu, Almaniya Berlin divarı ilə yadda qalıbsa, Azərbaycanın da Şuşası və Ağdamı ilə milli yaddaş quruculuğu aparması tarixi zərurətdir. Hazırda Türkiyə, Pakistan, Özbəkistan və Macarıstanda Qarabağ turizminin tanıdılması üçün kampaniyalar hazırlanır. 2026-cı ildən etibarən xarici turistlər üçün də xüsusi paketlər istifadəyə veriləcək. Əlbəttə, bu mərhələnin də öz çağırışları var. Qarabağ yalnız turizm obyekti deyil, həm də qürur mövzusu, şəhid xatirəsi, mədəni kimlikdir. Əgər Qarabağ yalnız iqtisadi resurs kimi dəyərləndirilərsə, onun psixoloji və simvolik dəyəri kölgədə qala bilər. Turizmin dizaynı bu balansı qorumaq üzərində qurulmalıdır. Yəni əcnəbilərin Qarabağa səfəri real iqtisadi təsir doğuracaq, amma bu, həm də informasiya savaşında Azərbaycanın əlini gücləndirəcək. Qərb ölkələrinin vətəndaşları Qarabağı gördükcə regionla bağlı uzun illər ərzində Ermənistanın yaratdığı yanlış təsəvvürlər dağılacaq. Odur ki, Qarabağa səfərlərin liberallaşdırılması tarixi ədalətin də bərpasına zəmin yaradacaq.

**Jalə QASIMZADƏ, "Respublika".**